# VIII - Nesihetler

(s. 157-159)

Sayuj[1] baş salamat[2] olar.
Sene hörmet edenin qedrini bil.
Başqasmm zehmetinden istifade etme.
Ağıl ve kâmal dövlettden yüksekdir.
Biliksiz ağıl paltarsız[3] beden kimidir.
Danışmağa sözün yoxsa, danışma.
Can de, can eşit.
Meclise bax, danış.
Dindirmeseler[4] dinme.
Xesislik alçaqlıqdır.
Hemişe yaxşılarla yoldaş ol.
Yaxşılıq et, yamanlıqdan qaç.
Özgesinin qem kederine gülme ki senin de başına geler.
Xoş danışsan, xoş cavab eşidersen.
Qem qüsseye şerik olana kömek lazımdır.
Özünü saxla, her şeyden ötrü özünden çıxma[5].
Emeyi itirme, emeyi ancaq nadanlar itirer.
Öz biliyine qürrelenme[6].
Nadanlardan, cahillerden öyren-başqasmın etdiyi iyrenç[7] işlerden ibret götür, sen etme.
Tenbellik ufunet[8] getirer.
Temiz ad qazanmaq igidin nişanıdır.
Etdiyin yaxşılığı başa qaxma.
Qoy seni xalq te'rif etsin[9], xalq gözü me'yardır[10].
Ne qeder bilikli olsan da özünü bilmeyen hesab et.
Her işi meslehetleş[11], sonra helline giriş.Dilini saxlamağı bacar
Herkesle öz dili ile danış.
Çox bilen az danışar, az bildiyin halda çox danışma.
Söz danışan ol, söz güleşdiren olma.
Xeberçini eşitme, xeberçilikden elhezer et[12].
Sen xalqa sedaqetli ol ki xalq da seni te'riflesin.
Özüne meslehet bilmediyini başqalarına da bilme.
Zarafat[13] dostluğu pozar, şer getirer. Şit[14] zarafatdan

Qumarbaz adamla dost olma.
Fürseti fövte verme.[15] Eline fürset keçende düşmeninden adlama.
Azı saxlamağı bacarmayan çoxu da saxlayabilmez.
Neyin varsa ona qane ol artıq[16] tamahlıq etme,
Ayağını yorganına göre uzat.
Eşşeye mexmer ullarsan[17], geder küllükde ağnar.
Her işi vaxtmda gör.
Rahatlıx zehmetdedir.
Dosdu düşmen etmek asandı, düşmeni dost etmek çetin.
Başqalarmın malında gözün olmasın.
Emanete xeyanet olmaz.
Qeyretsiz, namussuz yaşamaqdan ölmek yaxşıdır.
Atalıq borcunu yerine yetir, övladma senet öyret.
Düşmeninle dost olan dostdan uzaq gez, ondan el çek.
Nâmerd dostdan ziyan çekersen. Bade dostlarından uzaq gez, onlar badeni dost dutarlar, bir saatm dostlarıdır.
Kinli ve tamahkâr adamlarla dostluq etme.
Acılığını düşmene bildirme. Qoy düşmen hemişe seni tox bilsin.
Düşmenin milçek qeder balaca olsa da, sen onu fil qeder büyük hesab ele.
Ev düşmeninden qorx ve ehtiyatlı ol.
Özün oturub durmağı, qonaqlıq qurmağı, adamaları qebul etmeyi bacar.
Yaşça senden böyük, yaxud qonaq gelende ayağa qalx, onu hörmetle qebul ele, hörmetle yola sal.
Yıxılanın elinden yapış, qaldır.
Şirin dille ilanı yuvadan çıxarmaq olar. Acı dille hamını özünden incik salarsan[18]. Herze sözün herze cavabı olar.
Adamın dalınca danışma.
İki üzlü olma, iki üzlülerden qaç.
özgezdiren adamlardan uzaq gez. Şer onlardan doğur.
Özünden güçlü ile vuruşma, yalancı adamla oturub durma.
Xesis ve iki üzlü adamlarla dostluq etme, nadanla öceşme[19], yalancıya inanma, sirrini başqasma deme, böhtançıdan[20] qaç.
Bir evin iki arvadı olarsa, ev süpürülmemiş qalar.
Heyanetden qaç, malına haram qatma.
Geride qalanı döyerler.

1. uyanık 2. selamet 3. elbise 4. konuşturmazlarsa 5. kendini kaybetme 6. kibirlenme 7. rezil, alçakça 8. pis koku 9. övsün 10. ölçü, terazi 11. danış 12. sakın 13. şaka 14. uygunsuz, tatsız 15. elden kaçırma 16. fazla 17. kadife giydirsen 18. darıltırsın 19. kinlesme 20. iftiracı

I